*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 334-338*

https://doi.org/10.62837/2024.10.334

**ZAMANOVA XALİDƏ YAŞAR QIZI**
**AzTU "Xarici dillər" kafedrasının baş müəllimi**
**Gəncə Dövlət Universitetinin dissertantı**
**xalide.zamanova44@gmail.com**

# SABİR RÜSTƏMXANLI ROMANLARINDA TARİXİ ŞƏXSİYYƏTLƏRİN OBRAZI

Müstəqillik dövründə Xalq yazıçısı Sabir Rüstəmxanlının yaradıcılığında böyük dəyişkilkliklər baş verir. Poetik yaradıcılıqda uzun bir yol keçən şair 80-ci illərin ortalarından ictimai-siyasi proseslərdə yaxından iştirak edir. "Ömür kitabı"nın yazılması ilə tarixlə müasirliyi vəht şəklində təsvir edir. Bundan sonra şairin yaradıcılığında nəsr və publisistikaya geniş yer verilir. 90-cı illərin sonlarından başlayaraq yazıçı tarixi mövzularda bir neçə roman yazır. "Göy Tanrı", "Xətai yurdu", "Ölüm zirvəsi", "Difai fədailəri", "Şair və Şər" və s. romanlarında xalqın keçmişini, etnik düşüncəsini, tarixi hadisə və şəxsiyyətlərini təsvir edir.

Sabir Rüstəmxanlının tarixi şəxsiyyət olaraq təsvir etdiyi Qacar xanədanının görkəmli nümayəndəsi Cavad xan (1748-1804) yaxın tariximizdə yaşamışdır. XIX əsrin əvvəllərindən Rusiyanın işğalı altında olduğumuzdan işğala qarşı mübarizə aparan bu böyük tarixi şəxsiyyət haqqında nə araşdırmalar aparılmış, nə də haqqında geniş yazılmışdır. Bu mənada, Cavad xan tarixi şəxsiyyətinin ilk bədii obrazını da elə Sabir Rüstəmxanlı əvvəlcə şeirlərində və "Cavad xan" poemasında, sonra da romanında və ssenarisində yaratmağa müvəffəq olmuşdur. Gəncə xanlığının sonuncu hökmdarı Cavad xan rus işğalına qarşı mübarizədə qəhrəmanlıqla həlak olmuşdur.

**Açar sözlər: Rüstəmxanlı, obraz, tarixi şəxsiyyət, Cavad xan, Ağaoğlu**

Onun bir dövlət xadimi və sərkərdə kimi işğala qarşı durması Azərbaycan tarixinin milli azadlıq mübarizəsini əks etdirir. Lakin romanda təkcə Cavad xanın obrazı yaradılmır; həm də bir əsr boyu Azərbaycan tarixinə nəzər salınır və tarixi şəxsiyyətlərdən Nadir şahın, Sisiyanov və bir çox xanların da epizodik də olsa, obrazı yaradılır. Doğrudur, Nadir şahın obrazı indiyədək N.Nərimanovun "Nadir şah" əsərində yaradılmışdı. S.Rüstəmxanlı isə burada hadisələrin inkişaf xəttini Nadir şah zamanından götürməklə Cavad xanın rus işğalına qarşı mübarizəsinin tarixi səbəblərini göstərmək istəmişdir. T.Salamoğlu da bu fikirdədir ki, yazıçının: *"Azərbaycan işğalına qarşı qəhrəmanlıqla mübarizə aparmış Cavad xan haqqında roman yazarkən Nadir şahla bağlı tarixin səhifələnməsi və analitik təhlildən keçirilməsi bununla bağlıdır"* (Salamoğlu, 2013, s. 12). Tədqiqatçı təhlil dedikdə romanın ilk bölümü "Muğan qurultayı və ya sonun başlanğıcı"nı nəzərdə tutur. Lakin heç də az yer tutmayan bu bölümdə icmal şəklində və bədii boyalarla Cavad xana

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.334-338*

qədərki siyasi hadisələrin mənzərəsi verilir. Əlbəttə, Nadir şaha bu bölümdəki hadisələr kontekstində yanaşmaq da onun obrazına müəyyən dərəcədə xələl gətirmiş olar. Çünki burada yazıçı Nadir şahın ömrünün yalnız son dönəmini və Borçalının itirilməsinə gətirib çıxaran hadisələri verir. Əslində isə Nadir şah Şah İsmayıldan sonrakı dövrdə Azərbaycan torpaqlarını bir siyasi çətir altında birləşdirmişdi. Ona görə Nadir şah obrazına bütöv şəkildə, yəni bütün fəaliyyəti kontekstində qiymət vermək daha obyektiv olardı.

Yazıçı Nadirin keçdiyi həyat yoluna icmal şəklində olsa da, böyük bir sərkərdə kimi qələmə verir. Onun böyüklüyünü təkcə ərazilərinin genişləndirməklə məhdudlaşdırmır, Nadirin əsas niyyəti iki böyük türk dövlətləri arasında yaxınlaşmanın zəruri olduğunu dərk edir və bunu vacib hesab edirdi. Nadir bu fikrini ömrünün sonunadək həyata keçirmək istəsə də qismət olmur. Çünki xarici və daxili amillər onun bu niyyətinin həyata keçməsinə imkan vermir. Yazıçı Nadir şahı tarixi gerçəkliyə uyğun olaraq ağıllı, iradəli bir dövlət başçısı və sərkərdə kimi təsvir edir. Lakin onun obrazını yaradrkən zəif yerlərini də göstərməyi unutmur. Onun gürcülərə güzəştlərini yada salır. O, Tamara ilə görüşündə Qazax və Borçalını gürcülərə bağışladıqdan sonra gürcülər də onun bu səxavətindən istifadə *edib "...az qala quzey Azərbaycanın hamısını-Şəkini, Şirvanı, Qarabağı, Car-Balakəni öz vassallıqlarında olan yerlər sayırdılar"* (Rüstəmxanlı, 2013, s. 48).

Yazıçı Cavad xanın xarakterini Sisianovla məktublaşmalarında bir daha üzə çıxarır. Cavad xanı onun təhdid dolu məktublarına çox ağıllı və diplomatik şəkildə cavablar verir. Qədim Gəncənin gürcülərə məxsus olduğunu bildirən Sisiyanova təkcə diplomatik cavablar verməklə qalmır, gələcək döyüşlər üçün hazırlıqlar görür, səngərlər qazdırır, qalaları möhkəmləndirir. Özü xalq arasında olmaqla həm camaatın qarşıda onları gözləyən müharibəyə münasibətini öyrənir, həm də onlarda milli və vətənpərvərlik ruhunu qaldırır. Diplomatiyaya heç bir yol qoymayan, ondan təslim olmağı istəyən Sisiyanova cavabında mərdliyini göstərir və döyüşə hazır olduğunu bildirirdi. Çünki o yaxşı bilirdi ki, təslimçilikdənsə düşmənə qarşı vuruşub ölmək şərəflidir: *"Müharibə etmək istəyirsənsə mən hazır. Əgər öz toplarınla öyünürsənsə, mənimkilər ondan geri qalmır. Sizdə top lüləsinin uzunluğu bir arşındırsa, bizdəki üç-dörd arşındır. Qələbə isə Allahın əlindədir... Mənə qarşı müharibəyə hazır olmağı təklif edirsən. Sən Şəmsəddinə girən gündən müharibəyə hazıram"* (Rüstəmxanlı, 2013, s. 429).

*Onun dayandığı yerdən qalxan gözəgörünməz bir burulğan nəhəng bir çinar kimi qalxıb Gəncənin üstündə çətirləndi. Bu Cavad xanın ruhu idi..."* (Rüstəmxanlı, 2013, s. 518-519). Y.Axundlunun *fikrincə "Müəllif onun həlak olma səhnəsini olduqca təbii və təsirli boyalarla qələmə almışdır. O, düşmən gülləsindən ağır yaralanıb ölümcül vəziyyətdə olarkən ayaq üstə top lüləsinə söykənmiş vəziyyətdə durur ki, bunun dərin rəmzi mənası var"* (Axundlu, 2013, s. 414-415). Rəmzi məna isə ondan ibarətdir ki, Cavad xan düşmən gülləsindən yıxılmır, o, düşmən gülləsindən ölsə də

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 334-338*

çöllərinə baxdığı Azərbaycanda heykələ dönür və düşmənə qarşı bir direniş simvoluna çevrilir. Cavad xan bu ölümə şüurlu şəkildə gedir, Vətəninin azadlığı uğrunda gedir. Bunu onun: *"Çoxları məni bu savaşdan çəkindirmək istəyir. Ancaq mən düşmənə cavab vermişəm. Demişəm ki, omnlar Gəncəyə ancaq meyitimin üstündən keçib girə bilərlər. Mən bu ölümü xoşbəxtlik kimi qəibul edirəm"* (Rüstəmxanlı, 2013, s. 468) sözlərindən də aydın görmək olar. Cavad xan bilirdi ki, düşmən qalib gələ bilər, ancaq onlara direniş göstərməmələri üçün gələcək nəsil onlara lənət oxuya bilərdi. Doğrudan da, Cavad xan bu hərəkəti ilə xalqın mübarizə əzmini göstərdi. T.Əlişanoğlunun fikrincə, *"Cavad xan şəhadətə yüksəlir, Ölüm zirvısi ilə Azərbaycan mənasına tarix yaza bilir. Bu, tarixdən alıb Sabir Rüstəmxanlının çağdaşımıza tutmaq istədiyi Azərbaycandır"* (Əlişanoğlu, 2013, s. 337).

Sabir Rüstəmxanlı Cavad xanı təkcə bir sərkərdə, dövlət xadimi kimi təsvir etmir, həm də xeyirxah bir ata, sadə insan, xalq arasında dolaşan, vətən, millət və din təəssübkeşi kimi də göstərir. Yaxud, Cavad xanın ilk sevgisi çoban qızı Gülcamal olduğunu yada salaq. Doğrudur, onlar evlənə bilmirlər, ancaq bu saf, təmiz münasibətlər axıradək qalır. Cavad xanın meyidinin döyüş meydanından Gülcamalın çıxarması və onu bilinməyən yerə aparmaları da onun xalq arasında sevildiyinə bir işarədir. Yazıçı Cavad xanın uşaqlıq dostu memar Kərbalayı Sadıqla əlaqələri kontekstində onun dostluğa sədaqətini vermək istəmişdir. Onlar tez-tez görüşər, bir-birlərinə məsləhətlər verər, Gəncənin vəziyyəti ilə bağlı fikir mübadiləsi aparırdılar. Cavd xan dostunun "düzlük, halallıq rəmzi olan", "insanlara xidmətdən başqa bir qayğısının olmayan", "Allahdan başqa heç kimsədən çəkinib qorxmayan" bir gəncəli kimi onu yüksək qiymətləndirirdi. Yavuz Axundlu Cavad xanın romanda "*həm rəiyyət qayğısı çəkən bacarıqlı bir xan", "həm diplomatik məharətə malik dövlət xadimi kimi, həm qorxmaz sərkərdə kimi təsvir olunmaqla yanaşı, həm də ailə başçısı, ər, ata kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik insan kimi"* (Axundlu, 2013, s. 414). Təyyar Salamoğlu da Cavad xan obrazının təhlilində yeni yanaşmalar olduğunu bildirir və "bir vətən fədaisi" kimi xarakterizə edərək yazır: *"Ancaq Cavad xan təkcə vətən fədaisi deyil. O, həm də vəziyyəti bütün reallığı ilə qiymətləndirməyi, özünün və düşməninin gücünü hesablamağı bacaran ağıllı bir sərkərdədir. O, ancaq Gəncə xanlığının hərbi gücü ilə rus ordusuna qalib gəılməyin çətinliyini başa düşür. Azərbaycan xanlarına müraciət edib onları ümumi düşməni dəf etmək üçün məşvərətə çağırır"* (Salamoğlu, 2013, s. 12).

Bakı xanı Hüseynqulu xan da digər xanlardan geri qalmır, şamaxılı Mustafa xandan daha çox pul qoparmaq haqqında düşünür ki, əgər Quba xanı hücum etsə, ona yardım edəcəyini vəd etsin. Cəmi bir neçə cümlə ilə yazıçı Azərbaycan xanlarının əsərdəki portret cizgilərinə əlavə etməklə obrazlarını tamamlamış olur. Lakin yazıçı Bakı xanı Hüseynqulu xanın Sisianovu öldürməsini dostu Cavad xana bağlaması obrazın portretində yeni ştrix kimi mənalanır: *"Hüseynqulu xan bir neçə atlı ilə*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 10, 2024*
*Səh.334-338*

*əlində xonça Qoşa Qala qapısından çıxdı. İndiki Nizami heykəlinin yanında üz-üzə dayandılar. Xan xonçadan Qala qapısının açarını götürdü. Sisianova verəcəkdi. General Xəzərə yolunu açan bu açarı ələ keçirməkdən ötrü sinov gedirdi. Sevinci yerə-göyə sığmırdı. Elə bu an Hüseynqulunun yanındakı əmisioğlu mauzerdən açdığı atəşlə Sisianovun ürəyini deşdi"* (Rüstəmxanlı, 2013, s. 524).

Yazıçının təsvir etdiyi bu hadisə tarixi reallığa uyğun olaarq təsvir edilmişdir. Yazıçı Elçinin "Baş" romanında və bir çox tarixi, bədii, publsisitik əsərlərdə də Sisianovun öldürülməsi hadisəsi buna yaxın şəkildə təsvir edilir. Lakin S.Rüstəmxanlının özünəməxsiusluöu orasındadır ki, Sisianovun şəxsən Hüseynqulu xan tərəfindən başının kəsilməsi və xonçaya qoyulması yenidir. Bir də yazıçı general Sisianovun başının kəsilməsini Hüseyqulu xanın dostu Cavad xanın qisasının alınması kimi verilir: *"Hüseynqulu xan generalın başını kəsib, xonçaya qoydu və pıçıldadı:*

*-Köməyinə gələ bilməmişdim, Cavad xan, məni bağışla! Amma intiqamını aldım!.."* (Rüstəmxanlı, 2013, s. 524). Bu mənalandırmanı rəmzi hesab etmək olar. Yazıçı bununla Hüseynqulu xanın Cavad xanın köməyinə müəyyən səbəblərdən gedə bilməməsinə baxmayaraq, onunla həmrəy olduğu mesajını vermiş olur və özünün dediyi kimi, "intiqamını alır".

## ƏDƏBİYYAT:

1.Salamoğlu T. Ölüm zirvəsi romanı və tariximiz haqqında düşüncələrim. "525-ci qəzet", 2013, 8 yanvar, s. 12.
**2.Əlişanoğlu T. Sabir Rüstəmxanlının romanları// Xalq şairi Sabir Rüstəmxanlı (məqalələr məcmuəsi). Bakı, Elm və təhsil, 2021, s. 253-364.**
3. "Difai" təşkilatının bəyannaməsi. Difai Partiyası — Vikipediya (wikipedia.org)
4.Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı,
5.Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997,
6.Şəlalə G. "Difai fədailəri". Ədəbiyyat qəzeti, 2018, 12 dekabr, s. 8.
**7.Rüstəmxanlı S. Difai fədailəri (Bəlgəsəl roman). Bakı, Qanun, 2012, 448 s.**

**Khalide Zamanova**

**Sabir Rüstəmxanlı's Portrayal of Historical Figures in His Novels**

**Summary**

Having gone through a long journey in poetic creativity, the People's Poet Sabir Rüstəmxanlı began depicting the unity of history and modernity in his work "The Book of Life," written in the mid-1980s. From then on, the writer expanded his creative focus to prose and journalism. Starting from the late 1990s, Rüstəmxanlı wrote several novels on historical themes, such as *Göy Tanrı*, *The Homeland of Khatai*, *The Peak of Death*, *The Defenders of Difa'i*, *The Poet and the East*, and others. In these novels, he portrays the nation's past, ethnic thought, historical events,

and personalities. Rüstəmxanlı explores periods and events in Azerbaijani history that are either less studied or somewhat neglected. For his novels, he chooses historical heroes who hold significant places in the national consciousness. The protagonists of these novels (Cavad Khan, Əhməd Ağaoğlu, Məhəmməd Hadi, etc.) embody the national ideal of the people. These historical novels depict heroes who, in the most difficult times, fought to free their homeland from occupation. Despite living in different periods, these heroes seem to continue one another's path and pass the mission of protecting the nation's freedom and independence to each other. Even in his more recent work *The Last Work of the Academic*, the writer highlights the historical mission of the main character.

**Keywords: Rüstəmxanlı, character, historical figure, Cavad Khan, Ağaoğlu**

**Замонова Х.**

## ОБРАЗ ИСТОРИЧЕСКИХ ЛИЧНОСТИ В РОМАНАХ САБИРА РУСТАМХАНЛИ

Пройдя долгий путь поэтического творчества, народный поэт Сабир Рустамханлы начал изображать единство истории и современности в своем произведении *«Книга жизни»*, написанном в середине 1980-х годов. С этого времени писатель расширяет свой творческий кругозор, обращаясь к прозе и журналистике. С конца 1990-х годов Рустамханлы написал несколько романов на исторические темы, таких как *«Гёй Тангры»*, *«Родина Хатаи»*, *«Вершина смерти»*, *«Защитники Дифаи»*, *«Поэт и Восток»* и другие. В этих романах он изображает прошлое народа, этническую мысль, исторические события и личности. Рустамханлы исследует те периоды и события азербайджанской истории, которые либо недостаточно изучены, либо несколько забыты. Для своих романов он выбирает исторических героев, которые занимают значительное место в национальном сознании. Протагонисты этих романов (Джават хан, Ахмед Агаоглу, Мухаммед Хади и другие) воплощают национальный идеал народа. Эти исторические романы изображают героев, которые в самые трудные времена боролись за освобождение своей Родины от оккупации. Несмотря на то, что эти герои жили в разные исторические периоды, они, кажется, продолжают путь друг друга и передают друг другу миссию защиты свободы и независимости народа. Даже в своем более позднем произведении *«Последняя работа академика»* писатель подчеркивает историческую миссию главного героя.

**Ключевые слова: Рустамханлы, персонаж, историческая личность, Джават хан, Агоглу**

**Rəyçi: filologiya üzrə fəlsəfə doktopu,dosent Sevinc Bağırova**